UOT 316
DOI: https://doi.org/10.30546/19063.2026.06.5519

ETNOQRAFİK METODUN SOSİOLOJİ TƏDQİQATLARDA TƏTBİQİNİN METODOLOJİ ƏSASLARI

CAHANDAR QALİB OĞLU CABAROV
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı
Bakı ş., İstiqlaliyyət küç., 30. AZ1001
ORCID: https://orcid.org/0000-0002-0075-2398
E-mail: c.cabarov@bsu-uni.edu.az

XÜLASƏ

Tədqiqat sosioloji araşdırmalarda etnoqrafik metodun tətbiqinin metodoloji əsaslarını sistemli şəkildə təhlil edir və bu metodun hansı elmi zərurətdən meydana gəldiyini, hansı analitik boşluğu doldurduğunu və müasir sosiologiyada hansı şərtlər daxilində etibarlı bilik istehsal etməyə imkan verdiyini müəyyənləşdirir. Məqalədə etnoqrafiya sosiologiyada sadə məlumat toplama texnikası kimi deyil, sosial reallığın aktorların özləri tərəfindən necə mənalandırıldığını anlamağa yönəlmiş və özünəməxsus bilik istehsalı məntiqinə malik metodoloji yanaşma kimi nəzərdən keçirilir. Bu kontekstdə, etnoqrafiyanın pozitivist sosiologiya ilə əsas toqquşma nöqtələri, xüsusilə obyektivlik anlayışının fərqli şəkildə qurulması, tədqiqatçının sahədə iştirakının rolu və interpretativ təhlilin əhəmiyyəti müzakirə olunur. Bundan əlavə, etnoqrafik metodun sosioloji tədqiqat dizaynının hansı mərhələlərində istifadə edilə biləcəyi əsaslandırılır və bu seçimin tədqiqat sualının xarakterindən asılı olduğu göstərilir. "Sahə" anlayışı fiziki məkan kimi deyil, sosial münasibətlərin, gündəlik praktikaların və məna yaratma formalarının cəmləşdiyi analitik konstruksiya kimi şərh edilir. Etnoqrafik müşahidənin müddəti, uzunmüddətli iştirak tələbi, sahənin sərhədlərinin çevikliyi və tədqiqatçının mövqeyinin refleksiv şəkildə idarə olunması metodun elmi etibarlılığını müəyyən edən əsas amillər kimi təhlil olunur.

Açar sözlər: *etnoqrafik metod, sosioloji metodologiya, sahə tədqiqatı, keyfiyyət metodları, analitik interpretasiya.*

GİRİŞ

Etnoqrafik metod etnoqrafiya, antropologiya və s. digər sahələrdə əvvəlcədən mövcud olsa da, sosiologiyada klassik pozitivist yanaşmaların sosial reallığı əsasən ölçülə bilən dəyişənlər və makro-strukturlar səviyyəsində izah etməsi nəticəsində yaranan ciddi interpretasiya boşluğunu doldurmaq ehtiyacından meydana çıxmışdır [1]. Kəmiyyət tədqiqatları sosial hadisələrin yayılma dərəcəsini, tezliyini və statistik əlaqələrini göstərsə də, bu hadisələrin gündəlik həyatın içində necə yaşandığını, aktorlar tərəfindən hansı mənalarla yükləndiyini və sosial nizamın konkret praktika vasitəsilə necə qurulduğunu izah etməkdə məhdud qalırdı. Məhz bu məhdudiyyət sosioloji araşdırmalarda etnoqrafik metodu zəruri etmiş, sosial reallığın "içəridən" müşahidəsi və kontekstual şəkildə dərk olunması tələbatını ortaya çıxarmışdır [4]. Bu baxımdan, etnoqrafik metod sosiologiyada sadəcə məlumat toplama texnikası kimi deyil, bilik istehsalının özünəməxsus məntiqinə malik epistemoloji mövqe kimi çıxış edir; çünki burada bilik müşahidəçinin kənardan ölçməsi ilə deyil, tədqiqatçının sahə ilə qurduğu qarşılıqlı münasibət, interpretasiya və refleksivlik əsasında formalaşır. Etnoqrafik bilik sosial faktları sabit obyektlər kimi deyil, davamlı olaraq mənalandırılan və yenidən istehsal olunan proseslər kimi təqdim edir ki, bu xüsusiyyət öz növbəsində etnoqrafiyanı strukturçu və pozitivist metodlardan metodoloji cəhətdən ayırır. Nəticə etibarilə etnoqrafiya sosiologiyada gündəlik həyatın "görünməz" mexanizmlərini üzə çıxaran metodoloji boşluğu doldurur.

Etnoqrafik metodun "obyektivlik" iddiası sosioloji elmdə klassik pozitivist anlamda dəyərsizləşdirilsə də, etnoqrafik yanaşma obyektivliyi müşahidəçinin neytrallığı kimi deyil, tədqiqat prosesinin şəffaflığı, refleksivliyi və analitik əsaslandırılması kimi izah edir. Bu baxımdan, etnoqrafiya obyektivliyi subyektivliyin inkarı üzərindən deyil, tədqiqatçının sahədəki mövqeyini, təsirini və interpretativ qərarlarını açıq şəkildə problematizasiya etməsi üzərindən əsaslandırır. Etnoqrafiyanın interpretativ xarakteri onun analitik etibarlılığını avtomatik olaraq zəiflətmir; əksinə, sosial reallığın aktorlar tərəfindən necə mənalandırıldığını birbaşa göstərmək imkanı verdiyi üçün izah gücünü artırır. Lakin bu, yalnız interpretasiyanın empirik müşahidə ilə sistemli şəkildə əlaqələndirildiyi hallarda müm-

kündür [2]. Tədqiqatçının sahədə aktiv iştirakı pozitivist yanaşmada metodoloji risk kimi qiymətləndirilsə də, etnoqrafik metodologiyada bu iştirak bilik istehsalının ayrılmaz şərti hesab olunur, çünki sosial praktikaların daxili məntiqi məsafəli müşahidə ilə deyil, yalnız iştirak və təcrübə vasitəsilə üzə çıxarıla bilir. Məhz bu nöqtədə etnoqrafik metod pozitivist sosiologiya ilə toqquşur: bir tərəfdə ölçmə, replikasiya və müşahidəçi neytrallığı üzərində qurulan bilik anlayışı, digər tərəfdə isə kontekstual, situativ və interpretativ bilik istehsalı modeli dayanır [8]. Bu toqquşma onu göstərir ki, etnoqrafik metod sosiologiyada mövcud olan metodlara sadəcə alternativ bir yol deyil, sosial reallıq haqqında tamam başqa cür bir bilik istehsal edən bir yanaşmadır. Bu metodun elmi dəyəri də onu pozitivist ölçülərlə qiymətləndirməkdə deyil, məhz bu fərqli bilik istehsalı məntiqi daxilində, yəni kontekst, interpretasiya və refleksivlik əsasında dəyərləndirilməlidir.

Bütün bu konseptual-metodoloji mübahisənin əsasında, bizim tədqiqatımızın məqsədi etnoqrafik metodun sosioloji tədqiqatlarda hansı metodoloji şərtlərlə, hansı mərhələlərdə və hansı analitik prinsiplər əsasında elmi cəhətdən etibarlı bilik istehsalına imkan verdiyini sistemli şəkildə əsaslandırmaqdır. Bu məqsədə çatmaq üçün etnoqrafik metodun sosioloji tədqiqatlarda tətbiqi ilə bağlı əsas metodoloji müzakirələr sistemləşdirilmiş, sahə anlayışı, müşahidə müddəti, tədqiqatçının mövqeyi, məlumatların analizi və etik çərçivə analitik şəkildə qiymətləndirilmişdir. Eyni zamanda klassik və rəqəmsal etnoqrafiya arasında metodoloji davamlılıq və fərqlər göstərilərək gələcək tətbiqlər üçün konseptual çərçivə formalaşdırılmışdır.

1. Etnoqrafik metodun sosioloji tədqiqatlarda tətbiqinin komponentləri

Etnoqrafik tədqiqatın sosioloji araşdırmada hansı mərhələdə tətbiq edilməli olduğu birbaşa tədqiqatın məqsədindən və cavablandırılmaq istənilən sualın xarakterindən asılıdır (qrafik 1). Belə ki, etnoqrafiya sosial sahə haqqında ilkin biliklərin məhdud olduğu, anlayışların hələ sabitləşmədiyi və tədqiqat obyektinin kənardan müşahidə ilə aydın şəkildə oxuna bilmədiyi hallarda sosioloji araşdırmanın eksplorativ mərhələsində funksional metod kimi çıxış edir. Bu mərhələdə etnoqrafik metodun əsas üstünlüyü tədqiqatçının sahəyə yaxınlaşaraq sosial münasibətlərin, gündəlik praktikaların və qeyri-rəsmi normaların daxili məntiqini üzə çıxara bilməsidir. Eksplorativ etnoqrafiya tədqiqatçıya sahənin əsas aktorlarını, onların bir-biri ilə münasibət formalarını, hansı davranışların "normal" və ya "problemli" sayıldığını, eləcə də sahəni strukturlaşdıran dominant mənalandırma çərçivələrini müəyyənləşdirməyə imkan verir. Bu baxımdan, bu metod yalnız empirik məlumat toplamaq vasitəsi deyil, eyni zamanda sonrakı mərhələlərdə istifadə ediləcək anlayışların, kateqoriyaların və tədqiqat suallarının formalaşmasına xidmət edən analitik hazırlıq mərhələsi funksiyasını daşıya bilər. Xüsusilə sosial sahə əvvəlcədən nəzəri modellərlə tam izah olunmadıqda, bu metod tədqiqatın yanlış anlayışlar üzərində qurulmasının qarşısını alan metodoloji filtr rolunu oynayacaq. Ancaq həm də bu metod yalnız eksplorativ mərhələ ilə məhdudlaşmır və bir çox hallarda sosioloji tədqiqatın əsas metodu kimi də tətbiqi mümkündür. Gündəlik məişəti, simvolik qarşılıqlı təsirləri, həmçinin qeyri-rəsmi qaydaları və "səssiz" sosial nizamı ehtiva edən tədqiqat mövzularında etnoqrafik metod alternativ deyil, mərkəzi metodoloji seçimə çevrilir. Əksinə, tədqiqatın dizaynı struktur səviyyəsində qurulmuş, əvvəlcədən müəyyən edilmiş dəyişənlərə əsaslanan və ölçmə məqsədi daşıyan hallarda, başqa sözlə mütləq kuantitativ araşdırmalarsa bu metod daha çox tamamlayıcı metod funksiyası yerinə yetirə bilər (əgər ehtiyac varsa). Bu cür tədqiqatlarda etnoqrafik metod kəmiyyət nəticələrinin arxasında dayanan sosial mexanizmləri, statistik əlaqələrin gündəlik həyatda necə təzahür etdiyini və aktorların bu nəticələri necə mənalandırdığını izah etmək üçün istifadə oluna bilər [3].

Etnoqrafiyada "sahə" anlayışı sosioloji baxımdan təkcə fiziki məkan kimi deyil, sosial münasibətlərin və mənalandırma formalarının cəmləşdiyi analitik konstruksiya kimi müəyyənləşdirilməlidir. Klassik yanaşmada sahə coğrafi və ya institusional sərhədlərlə eyniləşdirilsə də, müasir sosiologiyada bu anlayış daha geniş məna kəsb edir və münasibətlər sistemi, gündəlik həyat və diskursiv çərçivələr sahənin əsas komponentlərinə çevrilir. Sahə bəzən konkret bir institutun içində formalaşa bilər, lakin onu sosioloji baxımdan mənalı edən həmin institut daxilində təkrarlanan davranışlar, qeyri-rəsmi qaydalar və aktorların dünyanı anlama üsullarıdır. Bu səbəbdən, sahə nə yalnız məkan, nə də yalnız diskursdur; o, sosial reallığın praktik, simvolik və münasibət ölçülərinin kəsişdiyi nöqtədə qurulan analitik vahiddir və etnoqrafik tədqiqatda sahənin necə müəyyənləşdirildiyi metodun elmi tutarlılığına birbaşa təsir göstərir. Sahənin sərhədləri isə inzibati və ya texniki rahatlığa görə deyil, metodoloji

və analitik meyarlar əsasında çəkilməlidir. Əsas meyar tədqiqat sualının hansı sosial münasibətləri əhatə etməsidir; yəni sahənin sərhədi empirik materialın tədqiqat sualına izah gücü verdiyi nöqtələrdə formalaşmalıdır. Sahə analitik baxımdan yeni və keyfiyyətcə fərqli məlumat istehsal etmədiyi anda metodoloji olaraq "bağlanmış" sayılır. Bu mənada, sahə sərhədlərinin elastikliyi vacib məsələdir, lakin bu elastiklik nəzarətsiz genişlənmə demək deyil; sahə yalnız o halda genişləndirilməlidir ki, bu genişlənmə sosial münasibətlərin izahını dərinləşdirsin. Əks halda, sərhədsiz sahə anlayışı etnoqrafik tədqiqatı analitik fokusdan uzaqlaşdıraraq təsviri məlumat yığınına çevirə bilər. Buna görə də sahənin elastikliyi məhdud və əsaslandırılmış olmalı, metodoloji refleksiya ilə müşayiət edilməlidir [6].

Etnoqrafik müşahidənin müddəti də sosioloji baxımdan vacibdir və mexaniki zaman ölçüləri ilə deyil, analitik məqsədlərlə müəyyənləşdirilməlidir. "Nə qədər uzun, bir o qədər yaxşı" prinsipi hər zaman keçərli deyil; əsas məsələ müşahidənin sosial münasibətlərin dövri xarakterini, normallaşma mexanizmlərini və istisna hallarını əhatə edib-etməməsidir. Etnoqrafik müşahidə tədqiqatçıya yalnız rutin davranışları deyil, həm də bu rutinlərin pozulduğu anları, sosial gərginlikləri və transformasiya nöqtələrini müşahidə etmək imkanı verməlidir. Əgər müşahidə müddəti bu analitik səviyyəyə çatmağa imkan vermirsə, əldə edilən nəticələr həddən artıq səthi qalır. Digər tərəfdən, müəyyən sahələrdə qısa, lakin intensiv müşahidə belə sosial münasibətlərin əsas mexanizmlərini üzə çıxara bilər. Bu səbəbdən etnoqrafik müşahidənin müddəti əvvəlcədən standartlaşdırılmış zaman çərçivəsi ilə deyil, analitik doyma meyarı ilə əsaslandırılmalıdır. Uzunmüddətli iştirak tələbi etnoqrafiyanın klassik prinsiplərindən biri olsa da, bu tələb bütün tədqiqatlar üçün eyni dərəcədə zəruri hesab edilə bilməz. Sosial sahə qapalı, etimad əsaslı və xaricdən müşahidəyə müqavimətli olduqda, uzunmüddətli iştirak metodoloji baxımdan vacibdir, çünki yalnız zamanla tədqiqatçı sahənin daxili məntiqinə nüfuz edə bilir [5]. Lakin bəzi hallarda, xüsusilə açıq sosial mühitlərdə və ya rəqəmsal platformalarda uzunmüddətli iştirak metodoloji üstünlük yaratmaq əvəzinə analitik məsafəni zəiflədə bilər. Belə hallarda iştirakın uzadılması artıq bilik istehsalına deyil, tədqiqatçının sahə ilə həddindən artıq eyniləşməsinə xidmət edir. Buna görə uzunmüddətli iştirak normativ tələb kimi deyil, tədqiqat sualına və sahənin xüsusiyyətlərinə uyğun olaraq situativ metodoloji qərar kimi qiymətləndirilməlidir. Etnoqrafik metodun elmi gücü də məhz bu çevik və refleksiv tətbiq qabiliyyətindən qaynaqlanır.


Etnoqrafik tədqiqatda tədqiqatçının sahədə iştirak dərəcəsinin tənzimlənməsi metodun ən həssas və eyni zamanda ən strateji məsələlərindən biridir, çünki burada iki ifrat risk mövcuddur: bir tərəfdən sahə ilə həddindən artıq eyniləşmə nəticəsində "tam assimilyasiya", digər tərəfdən isə sosial reallıqla canlı təmasın zəifləməsi ilə nəticələnən analitik məsafə itkisi. Bu tarazlıq iştirakın mexaniki səviyyədə yox, refleksiv şəkildə idarə olunmasını tələb edir; yəni tədqiqatçı sahədə nə qədər "içəridə" olduğunu yalnız fiziki mövcudluqla deyil, öz analitik mövqeyini daim sorğulamaqla müəyyənləşdirməlidir. Praktik olaraq bu, tədqiqatçının gündəlik fəaliyyətlərdə iştirak etməsi, lakin eyni zamanda həmin iştirakın hansı davranışları normallaşdırdığını, hansılarının isə görünməz etdiyini analitik qeydlərdə açıq şəkildə problematizasiya etməsi deməkdir. Sahədə iştirak davamlı olaraq müşahidə ilə balanslaşdırılmalı, iştirak tədqiqatçıya əlavə empirik dərinlik verdiyi halda genişləndirilməli, analitik məsafəni zəiflətməyə başladığı anda isə şüurlu şəkildə məhdudlaşdırılmalıdır. Bu balansın qorunmasında sahə gündəliyinin rolu xüsusilə əhəmiyyətlidir, çünki gündəlik tədqiqatçıya öz emosional reaksiyalarını, normallaşan münasibətlərini və dəyişən mövqeyini sonradan analitik süzgəcdən keçirməyə imkan verir. Müşahidə ilə müəllifin interpretasiyası arasında metodoloji sərhədin qorunması da eyni refleksiv mexanizm üzərindən mümkündür: etnoqrafik mətn müşahidə olunan hadisələrin təsviri ilə bu hadisələrə verilən analitik mənaların açıq şəkildə ayrıldığı struktur üzərində qurulmalıdır ki, oxucu hansı nöqtədə empirik təsvirlə, hansı nöqtədə isə tədqiqatçının nəzəri şərhi ilə üzləşdiyini aydın şəkildə görə bilsin. Etnoqrafiyada interpretasiya müşahidənin yerini tutmamalı, müşahidədən törəməli və empirik materialla davamlı şəkildə əlaqələndirilməlidir; əks halda interpretasiya analitik deyil, spekulyativ və ya şəxsi xarakter alır [10]. Bu səbəbdən, etnoqrafik bilik istehsalında tədqiqatçının sahədə iştirakı nə gizlədilməli, nə də normallaşdırılmalıdır; əksinə, onun bilik istehsalına necə təsir etdiyi metodoloji cəhətdən açıq şəkildə göstərilməli və bu şəffaflıq etnoqrafiyanın elmi etibarlılığının əsas şərti kimi qəbul edilməlidir.

Sonrakı mərhələdə sahə qeydlərinin sosioloji analiz üçün sistemləşdirilməsi etnoqrafik metodun təsviri səviyyədən analitik səviyyəyə keçidində həlledici rol oynayır və bu proses yalnız texniki

təsnifat deyil, metodoloji qərar kimi başa düşülməlidir. Xronoloji sistemləşdirmə sahə prosesinin gedişatını, münasibətlərin zaman içində necə dəyişdiyini və müəyyən hadisələrin hansı kontekstdə baş verdiyini göstərmək baxımından ilkin mərhələdə faydalıdır, lakin təkbaşına analitik dərinlik yaratmır. Tematik sistemləşdirmə isə sahə qeydlərinin tədqiqat sualı ilə birbaşa əlaqəli mövzular ətrafında qruplaşdırılmasına imkan verir və bu mərhələdə artıq təsadüfi müşahidələr deyil, sosial baxımdan təkrarlanan, normallaşmış və mənalandırılmış praktika ön plana çıxarılır. Konseptual sistemləşdirmə isə etnoqrafik məlumatların sosioloji anlayışlara çevrildiyi ən yüksək analitik mərhələdir; burada sahədən əldə edilən empirik material nəzəri kateqoriyalarla əlaqələndirilir və müşahidələr sadəcə "nə baş verdi" sualına deyil, "bu nəyi ifadə edir" sualına cavab verməyə başlayır. Etnoqrafik məlumatların seçimi bu mərhələlərdə təsadüfiliyin qarşısını almaq üçün müəyyən meyarlara əsaslanmalıdır: müşahidə olunan hadisənin sahədə nə dərəcədə tipik olduğu, hansı sosial praktikaya işarə etdiyi, aktorlar tərəfindən necə mənalandırıldığı və tədqiqat sualına hansı izah imkanları qazandırdığı əsas seçmə meyarları kimi çıxış etməlidir. Analitik müşahidə fərdi və maraqlı hadisələri deyil, sahənin sosial məntiqini açan nümunələri prioritetləşdirir və bu, etnoqrafiyanın təsviri jurnalistikaya çevrilməsinin qarşısını alır. Etnoqrafik təsvir yalnız o zaman analitik xarakter alır ki, təsvir edilən davranışlar və situasiyalar daha geniş sosial münasibətlər, normalar və struktur mexanizmləri ilə əlaqələndirilsin; əks halda, təsvir yalnız oxunaqlı, lakin sosioloji baxımdan zəif narrativ səviyyəsində qalır. Buna görə də etnoqrafik metodun analitik dəyəri müşahidənin zənginliyindən çox, həmin müşahidənin necə seçildiyi, necə sistemləşdirildiyi və hansı nəzəri çərçivə daxilində şərh edildiyi ilə müəyyən olunur [11].

Sosioloji tədqiqatda etnoqrafik metod tətbiq olunarkən alt metodların seçimi təsadüfi deyil, tədqiqat sualının xarakterinə və sahənin sosial xüsusiyyətlərinə uyğun şəkildə aparılmalıdır. Etnoqrafiyanın əsas alt metodu iştirakçı müşahidədir və bu metod tədqiqat predmetinin birbaşa təcrübə vasitəsilə dərk olunmasına imkan verir; lakin iştirakçı müşahidə passiv izləmə ilə məhdudlaşmamalı, müşahidə olunan davranışların hansı kontekstdə baş verdiyini və aktorlar tərəfindən necə izah edildiyini açmağa yönəlməlidir. Bununla yanaşı, qeyri-strukturlaşdırılmış və ya yarı-strukturlaşdırılmış (dərin) müsahibələr etnoqrafik müşahidəni tamamlayan əsas alt metoddur, çünki müsahibələr müşahidə olunan praktikaların iştirakçıların öz dilində necə əsaslandırıldığını və mənalandırıldığını üzə çıxarır. Sahə gündəliyi və refleksiv qeydlər isə etnoqrafik bilik istehsalının ayrılmaz hissəsidir və tədqiqatçının sahədəki mövqeyini, emosional reaksiyalarını və interpretativ qərarlarını sonradan analitik süzgəcdən keçirməyə imkan verir. Bundan əlavə, etnoqrafik tədqiqatlarda sənəd və artefakt analizi də mühüm tamamlayıcı alt metod kimi tətbiq olunmalıdır, çünki gündəlik həyat yalnız müşahidə ilə deyil, yazılı mətnlər, vizual materiallar və simvolik obyektlər vasitəsilə də qurulur. İnstitusional qaydalar, daxili yazışmalar, sosial media paylaşımları və rituallaşmış obyektlər etnoqrafik müşahidənin kontekstini genişləndirir və sosial nizamın formal və qeyri-formal ölçüləri arasındakı əlaqəni görünən edir. Rəqəmsal mühitlərdə aparılan tədqiqatlarda isə onlayn müşahidə və diskurs analizi etnoqrafiyanın alt metodları kimi klassik yanaşmaları tamamlayaraq sahənin çoxqatlı xarakterini əks etdirir.

Etnoqrafiyada anlayışların formalaşdırılması nə tamamilə sahədən "təbii şəkildə" çıxarılmalı, nə də əvvəlcədən sərt nəzəri çərçivə kimi sahəyə tətbiq edilməlidir; metodoloji baxımdan əsas olan bu iki yanaşma arasında refleksiv tarazlığın qorunmasıdır. Sahədən çıxarılan anlayışlar etnoqrafik müşahidələrin sosial reallığın daxili məntiqinə uyğun şərh edilməsinə imkan versə də, yalnız induktiv yanaşmaya əsaslanmaq empirik təsvirlərin nəzəri səviyyəyə yüksəlməsini çətinləşdirir. Digər tərəfdən, əvvəlcədən müəyyən edilmiş nəzəri anlayışların sahəyə dəyişməz kateqoriyalar kimi tətbiqi etnoqrafik məlumatın zənginliyini azalda və sahənin özünəməxsus xüsusiyyətlərini görünməz edə bilər. Bu səbəbdən etnoqrafik tədqiqat induktiv və deduktiv yanaşmaların qarşılıqlı dialoqu üzərində qurulmalıdır: ilkin müşahidələr sahənin əsas praktikalarını və mənalandırma formalarını üzə çıxarır, bu müşahidələr nəzəri anlayışlarla əlaqələndirilir və daha sonra sahəyə geri qayıdaraq həmin anlayışlar empirik material əsasında yenidən nəzərdən keçirilir [12]. Beləliklə, etnoqrafiyada anlayışlar nə tam spontan, nə də tam əvvəlcədən verilmiş olur; onlar sahə ilə nəzəriyyə arasında davamlı hərəkət nəticəsində formalaşır və bu metodoloji çeviklik etnoqrafik analizin sosioloji dəyərini təmin edir.



Qrafik 1. Sosiologiyada etnoqrafik metodun tətbiqi

Sosiologiyada etnoqrafik metodun tətbiqinə dair hazırladığımız qrafik mətndə ayrıca şəkildə açılmayan, lakin arqumentin daxili məntiqində səpələnmiş qalan əlaqələri bir yerdə göstərmə funksiyasını yerinə yetirir. Qrafikə əsasən, etnoqrafik metod sosioloji tədqiqatlarda sabit və əvvəlcədən müəyyən edilmiş bir mərhələyə bağlanmamalı, birbaşa tədqiqat sualının xarakterinə uyğun olaraq tətbiq edilməli, sosial sahə haqqında ilkin biliklərin zəif olduğu hallarda anlayışların formalaşdırılması üçün istifadə olunmalı, gündəlik praktikalar və qeyri-rəsmi normalar tədqiqatın mərkəzindədirsə, əsas metod seçilməli, ölçmə və dəyişənlər üzərində qurulan tədqiqatlarda isə yalnız izahedici tamamlayıcı rol daşımalıdır. Bu çərçivədə, sahə də fiziki məkan kimi deyil, sosial münasibətlərin və mənalandırma formalarının cəmləşdiyi analitik vahid kimi müəyyənləşdirilməli, onun sərhədləri empirik bolluqla deyil, analitik doyma nöqtəsi ilə bağlanmalıdır. Etnoqrafik müşahidənin müddəti zaman vahidi ilə deyil, sosial mexanizmlərin aydınlaşması ilə əsaslandırılmalı, uzunmüddətli iştirak yalnız qapalı və etimada əsaslanan sahələrdə zəruri sayılmalıdır. Tədqiqatçının sahədə iştirakı nə gizlədilməli, nə də normallaşdırılmalı, analitik qeydlər vasitəsilə daim nəzarətdə saxlanmalıdır. Anlayışlar nə tam induktiv, nə də tam deduktiv qurulmalı, sahə ilə nəzəriyyə arasında davamlı qarşılıqlı yoxlama əsasında formalaşdırılmalıdır.

2. Etnoqrafik metodun müasir sosiologiyada metodoloji perspektivləri

Etnoqrafik nəticələrin daha geniş sosioloji ümumiləşdirmələrə çevrilməsi yalnız empirik zənginliklə deyil, metodoloji şərtlərin dəqiq şəkildə yerinə yetirilməsi ilə mümkündür. İlk növbədə, etnoqrafik tapıntılar xaotik və təsadüfi müşahidələr kimi deyil, sosial baxımdan tipik olan ümumiləşdirmələr və münasibətlər əsasında qurulmalıdır; yəni müşahidə olunan davranışların sahədə nə dərəcədə təkrarlanan, normallaşmış və kollektiv olaraq paylaşılmış olduğunu göstərmək zəruridir. Bundan əlavə, etnoqrafik nəticələr lokal təsvir səviyyəsində saxlanmamalı, onları mümkün edən sosial mexanizmlər açıq şəkildə müəyyənləşdirilməlidir. Məhz bu mexanizmlərin analitik şəkildə ifadə olunması etnoqrafik biliklərin konkret sahədən kənara çıxaraq daha ümumi sosioloji müzakirələrə bağlanmasına imkan verə bilər. Ümumiləşdirmə burada statistik yayılma iddiası deyil, analoji sosial kontekstlərdə işləyə bilən izah məntiqinin formalaşdırılması kimi başa düşülməlidir.

Etnoqrafik nəticələrin ümumiləşdirilə bilməsi üçün ikinci vacib şərt onların nəzəri çərçivə ilə sistemli şəkildə əlaqələndirilməsidir. Sahədən əldə edilən empirik material mövcud sosioloji anlayışlarla qarşılaşdırılmalı, bu anlayışları təsdiqlədiyi, dəyişdirdiyi və ya problematizasiya etdiyi açıq şəkildə göstərilməlidir. Əgər etnoqrafik tədqiqat yalnız konkret hadisələrin təsviri ilə kifayətlənirsə, o, ümumiləşdirilə bilən sosioloji nəticələr istehsal etmir. Buna qarşılıq, empirik tapıntılar nəzəri anlayışların yenidən düşünülməsinə və ya yeni analitik kateqoriyaların formalaşdırılmasına imkan verdikdə, etnoqrafiya sahə-məhdud metod olmaqdan çıxaraq ümumi sosioloji bilik istehsalına töhfə verir. Bu mərhələdə tədqiqatçının refleksivliyi xüsusi əhəmiyyət daşıyır, çünki ümumiləşdirmə iddiası yalnız sahənin deyil, tədqiqatçının analitik seçimlərinin də nəticəsidir [14].

Bu metodun etik prinsipləri isə sosioloji tədqiqatın analitik sərbəstliyini tam şəkildə ləğv etməməli, lakin onu müəyyən sərhədlər daxilində tənzimləməlidir. İştirakçıların təhlükəsizliyi, anonimliyi və məlumatlı razılığı etik baxımdan dəyişdirilə bilməz, mütləq şərtlərdir və bu prinsiplər analitik maraqlardan üstün tutulmalıdır. Bununla yanaşı, etik qaydalar tədqiqatçını sahədə müşahidə olunan sosial münasibətləri analitik şəkildə problematizasiya etməkdən çəkindirməməlidir; etik həssaslıq tənqidi analizdən imtina demək deyil. Metodoloji baxımdan əsas məsələ etik məhdudiyyətlərin açıq şəkildə tanınması və analitik nəticələrin bu məhdudiyyətlər fonunda əsaslandırılmasıdır. Bu kontekstdə, etik çərçivə tədqiqatın analitik imkanlarını daraldan texniki

prosedur kimi deyil, bilik istehsalının legitimliyini təmin edən struktur element kimi nəzərdən keçirilməlidir. Etnoqrafik tədqiqatda etik məsuliyyət yalnız məlumatın toplanması mərhələsi ilə məhdudlaşmır, eyni zamanda məlumatın seçilməsi, təqdim edilməsi və şərh edilməsi proseslərini də əhatə edir. Xüsusilə, iştirakçıların sosial mövqelərinin yanlış və ya damğalayıcı (stiqmatizəedici) şəkildə təqdim olunması analitik baxımdan zəif nəticələr doğurur və etnoqrafik bilik istehsalının etibarlılığını zədələyir. Buna görə də etik yanaşma analitik ehtiyatlılıqla birləşdirilməli, nəticələrin necə formalaşdırıldığı və hansı aspektlərin qəsdən kənarda saxlandığı açıq şəkildə əsaslandırılmalıdır. Bu şəffaflıq tədqiqatın tənqidi gücünü azaltmır, əksinə, etnoqrafik nəticələrin həm elmi, həm də ictimai səviyyədə müdafiə oluna bilməsini təmin edir [7].

Bununla yanaşı, etnoqrafik metodun müasir sosiologiyada metodoloji gələcəyi onun digər metodlarla inteqrasiya olunaraq hibrid tədqiqat dizaynının mərkəzi elementi kimi mövqeyini gücləndirməsi ilə bağlıdır. Rəqəmsal mühitlər, çoxsahəli tədqiqatlar və refleksiv analitik yanaşmalar etnoqrafiyanı klassik sahə anlayışından kənara çıxararaq daha çevik və geniş tətbiq imkanlarına malik metodoloji strategiyaya çevirəcək. Ancaq rəqəmsal etnoqrafiyanın gələcək metodoloji dayanıqlığı da klassik etnoqrafiyanın əsas prinsiplərini saxlayaraq, kontekstin dəyişdiyi nöqtələrdə selektiv adaptasiya etməsindən asılıdır. Saxlanmalı olan əsas prinsiplərdən biri uzunmüddətli və sistemli müşahidədir; rəqəmsal mühitlərdə "tez baxış" və ya epizodik izləmə etnoqrafik dərinlik yaratmır. Eyni şəkildə, iştirakçıların praktikalarını onların öz mənalandırma çərçivələri daxilində anlamaq, tədqiqatçının neytral mövqeyi və empirik materialın kontekstual şərhi qorunmalıdır [15]. Buna qarşılıq, fiziki məkan mərkəzli sahə anlayışı və fasiləsiz fiziki iştirak tələbi rəqəmsal etnoqrafiyada normativ prinsip kimi saxlanmamalıdır; onlayn sahələrdə sahə münasibətlər şəbəkəsi, platforma arxitekturası və alqoritmik görünürlük üzərindən qurulur. Gələcəkdə rəqəmsal etnoqrafiya klassik metodun "harada olmaq" məntiqindən çox, "nəyə necə qoşulmaq" məntiqini əsas götürməli və bu keçidi metodoloji cəhətdən açıq şəkildə əsaslandırmalıdır.

Rəqəmsal etnoqrafiyada imtina edilməli olan digər yanaşma onlayn mətn və paylaşımların avtomatik olaraq "sahə məlumatı" kimi qəbul edilməsidir. Gələcək tədqiqatlar üçün əsas risk platforma kontentinin etnoqrafik müşahidə ilə qarışdırılmasıdır; sıradan mətnin toplanması müşahidənin yerini tutmur və sosial praktikaların analizi üçün kifayət etmir. Buna görə də rəqəmsal etnoqrafiya platforma qaydalarını, istifadəçi davranışlarının dövriliyini, görünürlük mexanizmlərini və iştirak formalarının dəyişkənliyini sistemli şəkildə nəzərə almalıdır. Etik baxımdan da "ictimai onlayn məkan" arqumentinə kor-koranə istinaddan imtina edilməli, razılıq, anonimlik və zərər riskləri konkret situasiyalar əsasında yenidən qiymətləndirilməlidir [7; 9]. Gələcək üçün metodoloji məqsəd rəqəmsal etnoqrafiyanı texnoloji imkanların məhsulu deyil, sosial münasibətləri izah edən analitik yanaşma kimi sabitləşdirməkdir.

Etnoqrafik metodun sosioloji istifadəsində ən çox rast gəlinən metodoloji səhvlər də gələcək tədqiqatlar üçün düzəldilməli əsas problemlərdir. Birinci səhv etnoqrafik metodun təsviri narrativlə eyniləşdirilməsi və müşahidənin analitik çərçivə olmadan təqdim edilməsidir. İkinci geniş yayılmış səhv tədqiqatçının sahədəki mövqeyinin gizlədilməsi və refleksivliyin metodoloji yük kimi deyil, əlavə şərh kimi görülməsidir. Üçüncü səhv isə lokal müşahidələrdən nəzəri nəticələr çıxararkən analitik vasitələndirmənin gözardı edilməsi və ümumiləşdirmə iddiasının əsaslandırılmamasıdır. Gələcəkdə etnoqrafiyanın sosioloji legitimliyinin qorunması üçün bu səhvlər metodun "təbiəti" kimi normallaşdırılmamalı, açıq metodoloji problemlər kimi tanınmalı və tədqiqat dizaynında əvvəlcədən nəzərə alınmalıdır.

Yaxşı qurulmuş etnoqrafik sosioloji tədqiqat gələcək metodoloji standartlar baxımından ilk növbədə sahənin analitik şəkildə müəyyənləşdirilməsi ilə seçilir; burada sahə fiziki məkanın təsviri ilə məhdudlaşmır, sosial münasibətlər, praktikalar və mənalandırma formaları üzərindən əsaslandırılır. Belə tədqiqatlarda müşahidə təsadüfi deyil, tədqiqat sualı ilə sistemli şəkildə əlaqələndirilmiş empirik material üzərində qurulur və məlumatların seçimi tipik, təkrarlanan və izah gücü olan praktikalar əsasında aparılır. Yaxşı etnoqrafik araşdırma refleksivliyi əlavə şərh kimi deyil, metodun struktur elementi kimi daxil edir; tədqiqatçının sahədəki mövqeyi, iştirak dərəcəsi və interpretativ qərarları açıq şəkildə göstərilir və analitik nəticələr bu mövqe nəzərə alınaraq əsaslandırılır. Gələcək üçün bu yanaşma etnoqrafik bilik istehsalını təsviri narrativdən ayıraraq sistemli və müdafiəolunan sosioloji analiz səviyyəsinə çıxaracaq [13].

Zəif etnoqrafik araşdırma isə adətən sahənin sərhədlərinin qeyri-müəyyənliyi, müşahidə ilə interpretasiya arasındakı metodoloji sərhədin qorunmaması və analitik çərçivənin zəifliyi ilə xarakterizə olunur. Bu cür tədqiqatlarda uzunmüddətli iştirak avtomatik keyfiyyət göstəricisi kimi təqdim edilir, lakin bu işti-

rakın analitik nəticəyə necə çevrildiyi izah olunmur. Nəticədə müşahidələr maraqlı, lakin nəzəri baxımdan əlaqəsiz təsvirlər səviyyəsində qalır və ümumiləşdirmə iddiaları empirik və nəzəri vasitələndirmə olmadan irəli sürülür. Gələcək metodoloji perspektivdən baxıldıqda, etnoqrafiyanın sosiologiyada elmi çəkisini qorumaq üçün əsas fərqləndirici meyar sahədə toplanan məlumatın həcmi deyil, onun analitik olaraq necə qurulduğu və nəzəri müzakirəyə necə bağlandığı olmalıdır. Bunu cədvəl 1-də görmək mümkündür.

Cədvəl 1. Etnoqrafik tədqiqatların xüsusiyyətləri: müqayisə

Xüsusiyyət	Güclü etnoqrafik tədqiqat	Zəif etnoqrafik tədqiqat
Sahə	Analitik olaraq müəyyən edilmiş	Qeyri-müəyyən sərhədlər
Müşahidə	Sistemli və tədqiqat sualı ilə əlaqəli	Təsadüfi və təsviri
Refleksivlik	Metodun struktur elementi	Əlavə şərh
Analitik çərçivə	Güclü və müdafiə olunan	Zəif və qeyri-müəyyən
Ümumiləşdirmə	Analoji sosial kontekstlərdə işləyən izah məntiqi	Empirik və nəzəri vasitələndirmə olmadan
Etika	Analitik maraqlardan üstün tutulur	İştirakçı təhlükəsizliyi təmin edilmir
Nəzəri əlaqə	Mövcud anlayışları təsdiqləyir və ya problematizasiya edir	Yalnız konkret hadisələrin təsviri ilə kifayətlənir
Rəqəmsal etnoqrafiya	Klassik prinsipləri saxlayır, selektiv adaptasiya edir	Onlayn mətnləri avtomatik olaraq sahə məlumatı kimi qəbul edir

Bütün bu müzakirələr fonunda etnoqrafik metodun müasir sosiologiyada gələcək metodoloji perspektivi onun nə klassik formaya nostalji bağlılıqla dondurulması, nə də texnoloji imkanların cazibəsi ilə səthiləşdirilməsi istiqamətində olmamalıdır. Gələcəkdə etnoqrafiya sahə anlayışını təkcə məkan və ya platforma ilə deyil, sosial münasibətlərin çoxsəviyyəli və çoxməkanlı quruluşu ilə əlaqələndirən daha çevik tədqiqat dizaynları üzərində qurulacaq. Bu, etnoqrafiyanın həm lokal dərinliyi, həm də daha geniş sosioloji izah potensialını eyni anda qorumasını tələb edəcək. Metodoloji baxımdan etnoqrafiya induktiv təsvirlərlə kifayətlənməyən, nəzəriyyə ilə sahə arasında davamlı dialoq quran analitik strategiya kimi möhkəmlənməlidir. Rəqəmsal mühitlərin artan rolu etnoqrafiyanı daha çox hibrid metodoloji modellərə yönəldəcək, lakin bu keçid müşahidə, refleksivlik və kontekstual şərh kimi əsas prinsiplərin zəiflədilməsi hesabına baş verməməlidir. Eyni zamanda etnoqrafiyanın etik çərçivəsi gələcəkdə daha situativ və kontekstasılı şəkildə düşünülməli, lakin analitik cəsarəti boğan normativ mexanizmə çevrilməməlidir. Metodun sosioloji legitimliyi isə toplanan məlumatın həcmi və ya sahədə keçirilən vaxtla deyil, empirik materialın analitik olaraq necə seçildiyi, sistemləşdirildiyi və nəzəri müzakirələrə necə bağlandığı ilə ölçüləcək.

NƏTİCƏ

Tədqiqatın nəticələrinə əsasən, etnoqrafik metodun sosioloji tədqiqatda mövqeyi sabit deyil; o, tədqiqat sualının xarakterindən asılı olaraq eksplorativ, əsas və ya tamamlayıcı metod kimi istifadə oluna bilər ki, bu seçim də, öz növbəsində, akademik işdə (məqalə, dissertasiya və s.) metodoloji cəhətdən açıq şəkildə əsaslandırılmalıdır. Tədqiqatımız göstərir ki, onun analitik gücü sahənin necə müəyyənləşdirildiyindən, müşahidənin necə sistemləşdirildiyindən və tədqiqatçının sahədəki mövqeyinin necə refleksiv şəkildə idarə olunduğundan birbaşa asılıdır. Sahə anlayışının məkanla məhdudlaşdırılmaması və analitik doyma meyarının əsas götürülməsi etnoqrafik nəticələrin elmi etibarlılığını gücləndirir. Klassik və rəqəmsal etnoqrafiya arasında metodoloji davamlılıq qorunmalı, lakin kontekstin dəyişdiyi nöqtələrdə selektiv adaptasiya aparılmalıdır. Nəticə etibarilə, etnoqrafik metod müasir sosiologiyada təsviri yanaşmadan kənara çıxaraq sistemli, nəzəri əsaslandırılmış və metodoloji cəhətdən müdafiə olunan bilik istehsalı vasitəsi kimi mövqeyini gücləndirir.

Rəqəmsal mühitlərdə etnoqrafiyanın tətbiqi klassik etnoqrafiyanı əsaslı şəkildə transformasiya edərək "sahə" anlayışını fiziki məkandan sosial qarşılıqlı təsirlərin baş verdiyi onlayn platformalara doğru genişləndirir və bununla da müşahidə, iştirak və zaman anlayışlarını yenidən müəyyənləşdirir. Onlayn icmalarda və sosial mediada etnoqrafik tədqiqat artıq fasiləsiz fiziki iştirak tələb etmir, əvəzində diskursların, simvolik davranışların və rəqəmsal praktikaların uzunmüddətli izlənməsi üzərindən qurulur ki, bu da metodun çevikliyini və tətbiq imkanlarını artırır. Bu transformasiya fonunda müasir sosiologiyada etnoqrafiyanın metodoloji statusu kənarlaşmaqdan çox, yeni tədqiqat sahələrinə uyğunlaşaraq güclənir; çünki rəqəmsal cəmiyyətin gündəlik həyat formalarını anlamaq üçün etnoqrafik yaxınlıq hələ də əvəzolun-

mazdır. Bununla belə, metodun artan populyarlığı onu bəzən səthi müşahidə və təsviri kontent analizi ilə qarışdırmaq riski də yaradır ki, bu, etnoqrafik metodun elmi çəkisini zəiflədə bilər. Gələcək perspektivdə bu metodun inkişaf trayektoriyası hibrid yanaşmalar istiqamətində formalaşacaq, yəni klassik iştirakçı müşahidə prinsipləri rəqəmsal məlumatlar, çoxsahəli tədqiqat və digər sosioloji metodlarla inteqrasiya olunaraq daha sistemli və analitik cəhətdən güclü tədqiqat modellərinə çevriləcək.

ƏDƏBIYYAT SİYAHISI:

1. Crossman, A. What Is Ethnography?:What It Is and How To Do It [Electronic resource] / ThoughtCo. – April 21, 2019. URL: https://www.thoughtco.com/ethnography-definition-3026313
2. Davies, C. A. Reflexive Ethnography: A Guide to Researching Selves and Others / C. A. Davies. – New York: Routledge, – 2008.
3. Emerson, R. M. Writing Ethnographic Fieldnotes / R. M. Emerson. – Chicago: University of Chicago Press, – 1995.
4. Ethnography Explained: Capturing Social Realities in Their Natural Settings [Electronic resource] / Sociology Institute. – January 30, 2023. URL: https://sociology.institute/research-methodologies-methods/ethnography-capturing-social-realities-natural-settings/
5. Gold, R. L. The Ethnographic Method in Sociology // – Qualitative Inquiry, – 1997. – Vol. 3, №3, – s. 388–402. URL: http://qix.sagepub.com/content/3/4/388
6. Gray, D. E. Doing Research in the Real World (3rd ed.) / D. E. Gray. – London: Sage, – 2014.
7. Iphofen, R. Research Ethics in Ethnography/ Anthropology [Electronic resource] / European Commission. – 2023. – 75 p. URL: https://ferb.sites.uu.nl/wp-content/uploads/sites/432/2023/10/ethics-guide-ethnog-anthrop_en.pdf
8. Jabarov, J. Bias in Scientific Research: How to Identify and Eliminate It // – Bakı: Elm və İnnovativ Texnologiyalar Jurnalı, – 2023. №25, – p. 80–96.
9. Lane, J., Lingel, J. Digital Ethnography for Sociology: Craft, Rigor, and Creativity // – Qualitative Sociology, – 2022. – Vol. 45, – p. 319–326.
10. Naidoo, L. Ethnography: An Introduction to Definition and Method [Electronic resource] / IntechOpen. – pp. 1–8. URL: https://cdn.intechopen.com/pdfs/31534/intech-ethnography_an_introduction_to_definition_and_method.pdf
11. Reed, I. A. Ethnography, Theory, and Sociology as a Human Science: An Interlocution // – Ethnography, – 2017. – Vol. 18, №1, – p. 107–129. URL: https://www.jstor.org/stable/26359166
12. Smith, D. E. Institutional Ethnography: A Sociology for People (Gender Lens) / D. E. Smith. – Walnut Creek (CA): AltaMira Press, – 2005. – 272 p.
13. Whitehead, T. L. Basic Classical Ethnographic Research Methods: Secondary Data Analysis, Fieldwork, Observation/Participant Observation, and Informal and Semi-structured Interviewing // – College Park (Maryland): Ethnographically Informed Community and Cultural Assessment Research Systems (EICCARS) Working Paper Series, – 2005. – July 17, – p. 1–29.
14. Williams, B. Sociology Ethnography Example: Methodologies Explained [Electronic resource] / Insight7. URL: https://insight7.io/sociology-ethnography-example-methodologies-explained/
15. Zahrádková, L. Ethnographer's Bias: Cultivating Reflexivity // – Ibero-Americana Pragensia, – 2024. – Vol. XLIX, №1, – p. 69–78.

МЕТОДОЛОГИЧЕСКИЕ ОСНОВЫ ПРИМЕНЕНИЯ ЭТНОГРАФИЧЕСКОГО МЕТОДА В СОЦИОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

Джахандар Галиб Джабаров
Докторант Института философии и социологии НАНА

РЕЗЮМЕ

Исследование систематически анализирует методологические основы применения этнографического метода в социологических исследованиях и выявляет, из какой научной потребности возник данный метод, какой аналитический пробел он заполняет и при каких условиях в современной социологии позволяет производить надежное знание. В статье этнография рассматривается в социологии не как простая техника сбора данных, а как методологический подход, обладающий собственной логикой производства знания, направленной на понимание того, как социальная реальность осмысляется самими акторами. В этом контексте обсуждаются ключевые точки столкновения этнографии с позитивистской социологией, в частности иное конструирование понятия объективности, роль участия исследователя в поле и значение интерпретативного анализа. Кроме того, обосновывается, на каких этапах социологического исследователь-

ского дизайна может быть использован этнографический метод, и показывается, что этот выбор зависит от характера исследовательского вопроса. Понятие «поля» интерпретируется не как физическое пространство, а как аналитическая конструкция, в которой концентрируются социальные отношения, повседневные практики и формы смыслообразования. Продолжительность этнографического наблюдения, требование длительного участия, гибкость границ поля и рефлексивное управление позицией исследователя анализируются как ключевые факторы, определяющие научную достоверность метода.

Ключевые слова: *этнографический метод, социологическая методология, полевое исследование, качественные методы, аналитическая интерпретация.*

METHODOLOGICAL FOUNDATIONS FOR THE APPLICATION OF THE ETHNOGRAPHIC METHOD IN SOCIOLOGICAL RESEARCH

Jahandar Galib Jabarov
Doctoral student at the Institute of Philosophy and Sociology of ANAS

SUMMARY

The study systematically analyzes the methodological foundations of the application of the ethnographic method in sociological research and reveals the scientific needs from which this method emerged, the analytical gaps it addresses, and the conditions under which it enables the production of reliable knowledge in contemporary sociology. In the article, ethnography is conceptualized in sociology not merely as a data collection technique but as a methodological approach with its own logic of knowledge production, aimed at understanding how social reality is interpreted by social actors themselves. Within this framework, the key points of tension between ethnography and positivist sociology are discussed, particularly the alternative construction of objectivity, the role of the researcher's participation in the field, and the significance of interpretative analysis. In addition, the article justifies the stages of sociological research design at which the ethnographic method can be employed and demonstrates that this choice depends on the nature of the research question. The concept of the "field" is interpreted not as a physical space but as an analytical construct in which social relations, everyday practices, and forms of meaning-making are concentrated. The duration of ethnographic observation, the requirement of long-term participation, the flexibility of field boundaries, and the reflexive management of the researcher's position are analyzed as key factors determining the scientific reliability of the method.

Keywords: *ethnographic method, sociological methodology, field research, qualitative methods, analytical interpretation.*

Rəyçi: Sosiologiya üzrə fəlsəfə doktoru, dosent Telman Niftaliyev

Məqalə redaksiyaya daxil olub: 27.07.2026
Çapa qəbul olunub: 12.08.2026
The date of the admission of the article to the editorial office: 27.07.2026
Accepted for publication: 12.08.2026